# ƏDƏBİ DÜŞÜNCƏMİZİN BALAYAR SADİQİ



**Şəddat CƏFƏROV**
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

*(Əvvəli ötən sayımızda)*

Poeziyanın nə olduğunu, insan hissləri üçün necə təsir etdiyini, ümumiyyətlə poeziyanın necə yarandığını müxtəlif təbiətli alimlər, tənqidçilər hərəsi bir cür dəyərləndirir. Ancaq Xələflinin dəyərləndirməsi poeziyanın mahiyyətinə yanaşması mənim üçün çox hissiyyatlı təsir bağışladı: *“Poeziyanı şair ruhunun çiçəkləri də adlandırmaq olar. Küləklər çiçəkləmiş ağacların yenilədikcə adama elə gəlir ki, çiçəkli budaqlar sonsuz sevgi duyğuları ilə süslənmiş olduqlarından sevinirlər. Çırpınan budaqlar danışır, yazın gəlişinə sevinir, qışın bozluğundan çıxmağına sevinir. Çiçəklər həyatın təzədən dirilişdən keçdiyinə xəbər məktublarıdır. Təbiətin hansısa sirli, ecazkar aləmindən günümüzün özünə, ruhumuza, varlığımıza üz tutmuş məktublar”.* İndi bu parçanı oxuyan hər kəs necə duyğulanır, bunu şərh etməyə lüzum görmürəm. Çünki müqayisələr o qədər həssas, o qədər obrazlıdır ki, elə bil, şeir oxuyursan, poetik bir parçanı dinləyirsən. Və istər-istəməz Xələflinin poeziyanı şair ruhunun çiçəklərinə bənzətməsini nəinki qəbul edirsən, hətta alqışlayırsan.

Şair həssaslığı poeziyanın yaranışı üçün əsasdır. Şair onu heyrətləndirən təbiət mənzərəsini, yaxud insan xislətinin hansısa bir cəhətindən təsirlənərək öz düşüncələrini müəyyən vəzn daxilində yazıya gətirir. “Şərhin poetik notları”nda müəllif bu yazını əslində “Cəmiyyətə məktublar” adlandırır.

Məktub yazma zərurəti nədən yaranır? İnsan bir dostuna, doğmasına, əzizinə məktub yazmaqla öz hisslərini bölüşür. Bəlkə də məktub yazdığı şəxsin nəyisə bilmədiyini nəzərə alaraq bir həyat sirrini ona açır. Məktub yazdığı kimsənin yoluna işıq salmaq istəyir. Beləliklə, məktub-şeirlər yaranır. Xələfli bunu belə mənalandırır: *“Şair üçün də hər bir poetik lövhə sözün bədii siqlətindən, sözün estetik təsir gücündən duyğular alan insanlar üçün təbiət çiçəklərinə bənzər məktublardır. İnsan ruhunun çiçəkləri poeziyanın ecazkar, ruhu dinləndirən, insanın düşüncəsini, qəlbini ehtizaza gətirən misralar bədii lövhələr şəklində üzə çıxır”.* Müəllif doğru deyir. İnsanın ruhunu dilləndirən, insanın düşüncəsini ehtizaza gətirən misralar sözü bir ecazkarlıqdır. Təkcə misraların ahəngi yox, həm də onun insan hisslərinə təsir edən mənası, məzmunu da xüsusi əhəmiyyət kəsb edir. Bir sözlə, əgər şeiri şairin cəmiyyətə məktubları adlandırırıqsa, onda məktubların ümumən insanların həyatındakı rolu, dəyəri haqqında düşünməyin özü də elə poeziyanın insan ruhuna təsiri ilə bağlıdır. Xələfli Balayarın poetik ruhunu çox yüksək dəyərləndirərək qeyd edir: *“Balayarın poetik yaradıcılığı elə bütövlükdə çiçəkləmiş insan ruhudur. Zamanına görə, vaxtına görə, şairin özünün ovqatına görə bu poetik çiçəklər rəngini dəyişir. Müxtəlif çalarlarda özünü göstərir. Kədərin və sevincin qovuşuğunda yaranmış təzə rənglər təkcə ruhumuzu oxşamır, həm də gözlə görünən ecazkar löhfə kimi gözlərimizin özünü də oxşayır. Hələlik sonuncu kitabına da şairin ruhunun çiçəkləri kimi baxırıq. Ancaq təəssüf ki, ola bilsin yaşın, yaxud, şəxsi kədərinin təsiri altında payız çənindən, payız şehindən islanmış çiçəkləri bu kitabda daha çox görmək mümkündür. “İslanmış göz yaşı” (2020) adlanan kitabın kədər motivi nə qədər güclü olsa da, bu payız çiçəklərini soldura, bu payız çiçəklərini bürüşdürə, bir sözlə, bu payız xalısını qara rəngə boyaya bilmir. Çünki hər misranın içində canlı bir insan ürəyi çırpınır”.* Onu da qeyd edim ki, Xələfli öz yazılarında sərbəst düşüncələrinə nə qədər qol-qanad versə də, bütün hallarda yazdığı, qələmə gətirdiyi müəlliflərin kitablarını, yaradıcılığını əsas götürür. O, təhlilə çəkəcəyi əsərləri hiss olunur ki, diqqətlə oxuyur. Bu əsərləri öyrənir. Sanki özününkiləşdirir. Yalnız bundan sonra ruhunda, varlığında yaranmış əks-sədanı yazıya gətirir. Onu da deyim ki, Balayar Sadiq sonet çələngləri yaratmağın ustadıdır. Bunu Xələflinin “Şərhin poetik notları” kitabındakı geniş və əhatəli təhlillər də göstərir. Bir anlığa düşünürəm ki, əgər şairlərin yazdıqlarını, yaratdıqlarını “Şərhin poetik notları”ndakı kimi həssaslıqla açıqlayan, sözə gətirən ədəbiyyat biliciləri olmasaydı, onda şairlər yəqin ki, cəmiyyətimiz üçün o qədər də portret aydınlığı ilə görünməzdilər.

Ə.R.Xələfli “İslanmış məktub” adlı çələngi təhlil edərkən müəllifin obrazlı yanaşmasına xüsusi diqqət yetirir. Məktub necə islana bilər? Məktubu yazan şəxsin hissləri, duyğuları o qədər səfərbər olunur ki, istər kədərli notlar, istərsə də, sevincli notlar sözün ovqatı altında göz yaşlarına çevrilir. Hətta bircə damla göz yaşı belə yanaqda muncuqlanırsa, ya göz dolursa biz o məktubu elə islanmış adlandıra bilərik. Zənnimcə, Xələflinin islanmış məktuba yanaşması da insan hisslərinin təbiiliyinə, ən başlıcası, həyat həqiqətinə əsaslanır: “Şair birinci çələngi “İslanmış məktub” adlandırır və onu ömür-gün yoldaşının unudulmaz xatirəsinə həsr edir. Sonet janrının sərt tələbləri çərçivəsində qələmə alınmış bu çələngin əsas qaynağı şairin ömür-gün yoldaşını vaxtsız itirməsi oldu. Təbiidir ki, burada kədərin rəngi daha üstün olacaq. Ancaq nə qədər üstün olur olsun, bu rəng şairin yaradıcılıq əzmini qıra bilmir. Onun varlığını dağıtmaq gücündə olmur. Sonsuz kədərin və sərhədsiz sevginin bir-biri ilə dil tapıb qoyuşduğu məqam şair üçün sözünü fikir dərinliklərindən çəkib üzə çıxarmaq imkanı yaradır. Elə ona görə də ağır itkinin göynəyən həsrəti ilə qısa müddətdə şair “İslanmış məktub” çələngini araya, ərsəyə gətirir”. Sevinclər də, kədərlər də əsasən insana aid keyfiyyətdir. Doğrudur, qeyri-insani varlıqların da bir-birini görərkən necə həssaslıq göstərmələri də təbiət hadisəsidir. Amma hər halda insanın sevinci və kədəri heyvanlardakı instiktlərdən fərqli olaraq şüura, düşüncəyə əsaslanır. Bir sözlə, insanın sevinc hissləri yaşaması onun ömrünü uzadır, ona həyatı sevdirir. Həyat nə qədər əziyyətli, əzablı olsa da, insan qəlbən, ruhən duyğuları ilə sevinc hissləri yaşayanda həyatın nə qədər gözəl bir nemət olduğunu bir daha anlayır. Axı biz dedik ki, insan həm də kədər hissləri ilə yaşayır. Həyatın elə qəribəlikləri, elə təzadları var ki, bir çox hallarda özünün gözlənilməz zərbələri ilə insana kədər bəxş edir. Və bu zaman bu kədər insanı ruhən öldürmür. Xələflinin qeyd etdiyi kimi hər bir “əsərin sonsuz kədər motivini insanı əhdə, vəfaya, sədaqətə, sonsuz sevgiyə çağıran səsini eşitməmək mümkün deyil”.

Müəllif “Şərhin poetik notları”nda yeri gəldikcə sənətkarın mükəmməl poetik örnəklərini də oxucu diqqətinə çatdırır. Balayarın yaradıcılığından o qədər örnəklər gətirmək olar ki, onun hər birində sənətkarın ustadlığı öz təsdiqini göstərmiş olar. Ədəbi qeydlərin içərisində verilmiş 3 bəndlik poetik lövhəyə diqqət edək:

*Belə qərib-qərib ağlama, qızım,*
*Gözü doluxsunub xatirələrin.*
*Nakam bir ananın son məktubudur,*
*Göz yaşı qoxulu çiçək əllərin.*

*Payızın ovcunda səbrim islanır,*
*Yelkənsiz qayığam dərd dənizində.*
*Könlüm sətir-sətir can verir hər gün,*
*Sənin ləpirində, sənin izində.*

*Yenə görüşünə gəlmişəm sənin,*
*De, niyə dinmirsən, səbrinə qurban?!*
*İsin göz yaşımla, hava soyuqdur,*
*Əyninə geydiyin qəbrinə qurban.*

Doğrudur, bu parçada kifayət qədər sarsıdıcı kədər də var. Ayrılığın gətidiyi hisslərin təsiri altında şair öz düşüncələrini sərrast poetik notlarla ifadə edib. Müəllifin obrazlı şəkildə dediyi əyninə geydiyin qəbir motivi göstərir ki, bu ayrılıq əbədidir. Ancaq əbədi olan ayrılığı da şair poetik yanaşması ilə sanki vüsala çevirir. Xəyalında, düşüncəsində idealına qovuşur, onunla birgə nəfəs alır. Müəllif yeri gəldikcə Balayarın obrazlı ifadələrini öz şərhlərinin içərisinə alır.

Həmin ifadələrin təsiri altında düşüncələrinin poetik ovqatını bir qədər də gücləndirir. Bir sözlə, müəllifin Balayar poeziyasına münasibətinin yeni çalarları, yeni qatları üzə çıxır. O, şairin hisslərini, duyğularını o qədər ideallaşdırır ki, biz sanki insanın ali hisslərə tapınması ilə əbədi yaşarlığına da inanırıq.

Ə.R.Xələfli Balayarın ikinci sonet çələnginə də diqqət yetirir: *“Kitabda ikinci sonet çələngi - “Həsrət qoxulu misralar”ı şair “mini sonetlər çələngi” adlandırır. Bu çələngdə əsas motiv Balayarın çox uğurlu mövzusu, insanın ali hissi, məhəbbətin tərənnümüdür. Ancaq burada da kədər həsrət duyğuları ilə qovuşaraq hər bir sonetin içindən tufanlı külək kimi burula-burula keçir. Şair ağ saçın sevginin üzünə ağ olmağını önə çəksə də yenə könül istəyinin qalib bayrağı misralar arasındakı duyğularla dalğalanır”.* Maraqlıdır ki, müəllif Balayarın sonetlərindəki poetik ovqatın gücünü insan hisslərinin tufanları ilə müqayisə edir. “Ağ saç”, “Tufanlı külək”, “Sevginin üzünə ağ olmaq”... kimi obrazların hamısı Balayarın öz yaradıcılığından sonetlərinə hopmuş duyğularının ayrı-ayrı obrazlı ifadələr kimi yaranmış mənzərəsindən götürülüb. Müəllif burada yenə Balayarın sonetlərindən birini diqqətə alır:

*Sevgi məktubudu sənin gözlərin, -*
*Mənim gözlərimə yazılıb, ömrüm.*
*Quran ayəsi tək hər kirpiyindən,*
*Tanrı təbəssümü asılıb, ömrüm.*

*Sevgimin üzünə ağ olub saçım,*
*Könül bəyazlığın “çəkir altını”.*
*Duyğular endirir öz bayrağını,*
*Ürək imzalamır “təslim aktını”.*

*Unuda bilmədim, məni bağışla,*
*O çiçək ətirli nurlu baxışlar,*
*Ağlımı başımdan elə aldı ki...*

Onu da qeyd etmək yerinə düşər ki, sonetin elə çətin, elə sərt qaydalı növləri var ki, hər şairin bu formalarda ilhamı qanad çala bilmir. Bunun üçün gərək şair bütün ruhu ilə janrın tələblərini mənimsəsin. Yazdığı mövzunun mahiyyəti ilə nəfəs alsın. Onun ruhunda, varlığında həmin poetik mənzərə qabaqcadan yaranmış olsun. Sonet çələnginin yaradıcı ardıcıllığı elə gözlənilməlidi ki, sonluqda da şairin uğurunu təmin edə bilsin. Xələfli “Şərhin poetik notları”nda yeri gəldikcə sonet janrının bu prinsipial forma xüsusiyyətlərinə də aydınlıq gətirir: *“Bu çələngin sonluğunda şair ağrı ilə yazır ki, (əslində bu sonuncu sonetin özü də çələngin digər bəndlərdəki misralarından hörülüb. Sözün qızıl kərpiçli bir evi kimi görünür.) “candan ağrı-ağrı mən sökülmüşəm, Bax bir salamatam, yoxsa ölmüşəm. Götür öz ovcuna qəlbini yoxla”.*

Göründüyü kimi, Xələfli burada Füzulini də yada salır. Hətta Balayarın poeziyasının mükəmməlliyini diqqətə çatdırmaq üçün əgər Füzuli indiki zəmanəmizə gəlsəydi, elə onun özü də Balayarın ifadə tərzindən məmnunluq duyardı. Müəllif “Şərhin poetik notları”nda yazır ki, Balayar sözü kimi diri şairdir. Və sonra da əlavə edir ki, payız onun poeziyasının ovqatına hakim olsa da, onu hələ yollar yorğunu kimi görmürük, sözünün qısqıvraq sahibi kimi görürük. Doğru deyir. Balayar Sadiq məhsuldar şairdir. Zaman dəyişdikcə onun mövzuları da dəyişir. Amma istedadı poetik ovqatının keşiyində dayanır. Zamanın təbiətinə uyğun olaraq yazılarını yenə həssaslıqla qələmə almaqda davam edir.

Axı dedik ki, poeziyanı duyğular seli adlandıranlar səhv etmir. Həqiqətən, duyğu elə bir möcüzədir ki, o ancaq hər kəsin öz aləmində yaranır. Gözlə görünmədən varlığına hakim olduğu şəxsi səfərbər edir, onu müəyyən istiqamətə yönəldir.

Xələfli Balayarın duyğular aləminə sanki heç kimsənin görmədiyi bir qitəyə səyahət edirmiş kimi daxil olur. Onun mənəvi mühitindəki çırpınmaları, sarsıntıları şeirlərinin motivindən duyur, onun yaşadığı hissləri özü də yaşamağa çalışır. İnsafən hər bir şairin duyğular aləminə daxil olmaq nə qədər çətin olsa da, Xələflinin tədqiq etdiyi müəllifin mənəvi mühitinə daxil olması, onu yaza bilməsi uğurlu təhlillərlə nəticələnir.

*(Davamı 11-ci səhifədə)*

# ƏDƏBİ DÜŞÜNCƏMİZİN BALAYAR SADİQİ

*(Əvvəli 10-cu səhifədə)*

Biz də Xələflinin bu duyğular aləminə səyahətini Balayarın sözlərinə istinadla qələmə aldığı esse-düşüncələrində də bütün həssaslığı ilə görə bilirik. Xələfli yazır: "Doğrudur, duyğu gözlə görünmür deyirik, amma Balayarın şeirlərində duyğuların gözlə görünə bilən rəngləri var. *"Bir damla payız" şeirinin misraları boyu qan kimi çağlayıb gedən duyğulara baxaq: "Adından islanıb bu payız yağışı... Bir yarpaq ümid yoxdu yarasını sarayım bu ürəyin... Əllərim uzaqlarda qalıb, Sənsizliyin kölgə saldığı yerlərdə... Payızı sərmişəm yollara bəlkə insafın üşüdü bir payız... Ovcumu tutmuşam ürəyimin altına, sən damcılayırsan..."* Son vaxtlar göz və köz obrazları müqayisə ilə ədəbiyyatımızda çox işlənir. Təqdim etdiyimiz parçadan da göründüyü kimi Xələfli də Balayarın mənəvi mühitini bütün aydınlığı ilə göstərmək üçün bu obrazların dəqiq çalarından yetərincə yararlanır.

Balayarın haqqında söhbət açdığı kitabını axıracan təhlil edən Xələfli onun "Şəhid anası" poemasına da diqqət yetirir. Məlumdur ki, bu mövzu Qarabağın işğaldan azad olunması ilə bağlı ən çox işlənir, yazılır. Bu da təsadüfi deyil, çünki şairlər xalqın dərdindən kənarda qala bilməz və Balyarın da bu mövzuya müraciət etməsini nəinki qanunauyğun hesab edirik, həm də təqdir edirik. Xələfli Balayarın digər poemalarının da haqqında danışır. Nəsimiyə həsr olunmuş "Həriflərin hərifi" əsərini müəllif neopoema adlandırır. Yaxud "Sözün Lənkəran ətri" nostalji poemasında mənəvi mühitimizin ən orijinal rənglərinə güzgü tutur.

"Şərhin poetik notları"nda Balayar Sadiqin öz müasirlərinin həyat yoluna, yaradıcılığına xüsusi diqqət göstərməsi də təqdir olunur. Xələfli qeyd edir ki, onun maraqlı şeirlərindən biri də "Əli Rza Xələfliyə" epiqrafı ilə çap olunub "Azərbaycan" jurnalında. Həmin şeirdən bir neçə misranı burada xatırlatmaq yerinə düşərdi:

Salam, dostum!
Xələflidə
Gözüyaşlı qalan xatirələr
Hər gecə ətəyini yığıb
Sənin misralarının işığında
Keçir Xudafərindən...

...Dostum,
Nə yaxşı qəlbində
Hələ də
Dəniz-dəniz dalğalanır
Bir misra ümid...

Həmin şeiri "Azərbaycan" jurnalında mən də oxumuşam. Doğma yurdu, kəndi işğal olunmuş Xələflinin şair obrazını, onun hisslərini, duyğularını Balayar Sadiq çox həssaslıqla ifadə etmişdir.

Onu da deyim ki, Balayar Sadiq öz dövrünü, xüsusilə ədəbi mühiti çox həssaslıqla izləyir. Yeri gəldikcə doğulub-böyüdüyü cənub bölgəsinin, xüsusilə Lənkəranın ədəbi mühitini yaşadan sənətkarlarla görüşür, onların tədbirlərində iştirak edir. Şübhəsiz, onların yaradıcılıqlarını da izləyir, yeri gəldikcə bu barədə baş redaktorluğu ilə nəşr etdiyi jurnalında da materiallar çap etdirir. Onun "Sözün Lənkəran ətri" adlı nostalji poeması fikrimizi kifayət qədər əsaslandırmaq üçün çox dəyərli ədəbi faktdır.

Əlbəttə, Lənkəran təbiəti ilə Azərbaycanın möcüzəli bir yeridir. Artıq əvvəl də dediyimiz kimi vaxtı ilə Tixonov da Lənkəranı cənub mirvarisi adlandırmışdı. Və biz yazımızın əvvəlində görkəmli yazıçı-publisist Sərdar Əliyevin də Lənkrana sevgi ilə yazdığı "Cənub mirvarisi" kitabının adını çəkmişdik. Demək, Balayarın bu doğma yerləri idealizə etməsi, bu barədə geniş söhbət açması təsadüfi ola bilməz. Xələfli də Balayarın "Sözün Lənkəran ətri" poemasına həssaslıqla yanaşaraq yazır: *"Mən "Sözün Lənkəran ətri" poemasını birər-birər, diqqətlə oxudum. Əvvəlcə Lənkəranın özünü gördüm: "Salam, yaşıl gözlü yaşıl şəhərim! Yenə yazdı... Yenə bu yazın ürəyimi yaşıl-yaşıl yazdı". Sonra şair xatirələrinin işığı ilə yaddaşının dar dolanbaclarından keçir. Qabağındakı bir stəkan çayda Vaqif Hüseynovun həsrətinin buğlanmağını görür. Xatirə-xatirə gözlərindən damcılayan bir misra Tərlanı, bir misra Nurəddini, bir misra Cavidanı və bir cümlə Qafar Cəfərlini seyr edir. Roman-roman Məmməd Hüseynin, sonet-sonet Şəkər Aslanın, sərbəst-sərbəst İltifat Salehin, qəzəl-qəzəl Mirhaşımın, Mirsalamın ruhları ilə dilləşir. Unudulmaz Məmməd Kazımın xatirəsini məmnunluqla xeyirxahlığın ucalığında lövhəyə çevirir. Və "sənət dünyasında səsi-sorağı bəlli, sözün zirvə qoxusudur Ağacəfər Həsənli" deyir. Camal Yusifzadənin xatırlanması yiyəsiz qalmış evin yiyəsini çağırmağa bənzəyir. Xatirə Xatunun "beyti" ilə xatirələrin unudulmaz küçələrinə su səpir. "Fövcül füsəha"nı qafiyə-qafiyə gülümsəyən görür".* Təkcə elə bu mətni müşahidə etmək bəs edir ki, Xələfli "Sözün Lənkəran ətri"ni bəzəyən adları necə hər birinə aid epitetlərlə təqdim edir. Yəni şairin yanaşmasını elə təqdim edir ki, biz həmin adları bir daha ruhumuza, varlığımıza doğmalıqla qəbul edirik.

Balayar Sadiqin "Sözün Lənkəran ətri" poeması təkcə Lənkəranın yaradıcı mühitinin mahiyyətini deyil, həm də bu mühiti yaradan insanların mənzərəsini yaradır. Təkcə elə poemada sadalanan adlara ehtiram olaraq Xələflinin yazısının sonluğundakı hissəni olduğu kimi yazıya gətirirəm: *"Elçin Mirzəbəylini yaşıl şəhərin alın yazısında təbərrük kimi əzizləyir. Fəxrəddin Teyyubun misralarına dəmir ağacını qovuşdurur. Qərib-qərib Baloğlan Cəlili, zindan-zindan Tofiq Həsənlini, əruz-əruz Oktay Zəkanı, ziya-ziya Ziyafət Əkbərlini, fəsil-fəsil Əli Nasiri epitetləyir. Yaşıllığın aprel qoxusunda kövrək misraları ilə nakam Anarı yad etməmiş ötmür. Həbib Səfərin, Məmməd Həbibin, Məsudi Dövranın, Elşad Səfərlinin, Nadir Müzəffərin, Etibar Vəliyevin, Əzizxanlı Qardaşxanın adları epitetlənir. Hər biri də öz düşüncə məkanlarına uyğun olaraq. Qızılbaş Əlisa Nicat bu yerdə necə yada düşməyə bilər. Şair onu "göz yaşı" muzeyində gördüm deyir. İdrakın şahmatında, Xanəhməd Nahidin tale yolu sözdən keçir. "Heç unutmaq olarmı, "yanmış budaq üstə oxuyan" Ağamir Cavadı..." Ağamir Cavad bu gün əyalətdə yaşayan və poetik nəfəsi ilə paytaxtacan yol açan bir şairdir. Təbiəti ilə insanlığa çox doğmadır. Elə ona görə də Balayar Sadiq onu unudulmaz kimi görür. Dəniz gözlü Əhməd Haqqsevər, ürəyi ilə məsələ dönən Əlimməmməd, naringi, limon, mandarin qoxulu Lənkəran gecələrini xatırladan Elxan Sovulu, Mirhafiz Bahadır doğmalığı, Sərraf Talıbın, Azad Zülaloğlunun dostu Əlisəfanın obrazları ilə görüşmək oxucu yaddaşında möhtəşəm həyat teatrının səhnəsini canlandırır. Sevda Əlibəylinin, Qüdrətin, Kamal Rəhmanın, Etibar Əhədin, Həzi Əliyevin, Xudaverdi Cavadın, İltifat Əhmədin, Yadulla oğlu Sehranın, Adil Əsədlinin, Gülməmməd Məmmədzadənin, Vəlişahın, Səfər, Xanım Dilrubanın... hər birinin adına, ünvanına uyğun söz seçimi Balayarın ustadlığından başqa həm də bu mühiti dərindən bilməyindən xəbər verir".* Zəngin Lənkəran ədəbi mühiti ilə bağlı bu hissələri gözlərimin önündən keçirdikcə həyatını sözə bağlamış insanların yaradıcılıq yolundan tanış olduğum səhifələri də xoş duyğularla xatırlayıram. Və elə buradaca müəllifin mənim də ünvanıma diqqəti qəlbimdə xoş duyğular oyadır: *"Bu gün mənəvi mühitimizdə xüsusi yeri olan naşir, yazıçı Şəddad Cəfərovun, dilçilik elmində mötəbər sözü ilə görünən Məsud Məhəmmədovun, bəlkə hələ nə qədər adları yada düşməyən mötəbərin hər birinin Lənkəran xalısının ecazkar lövhələridir. Şair görkəmli alim Yədulla Ağazadənin elm yolundakı hərəkətini cürətli addımların sahibi kimi xatırlayır. Həqiqətən Yadulla Ağazadə cəfakeşliklə ədəbi-elmi mühitimizdə ayrıca bir orbit yaradıb. Lənkaranın folkloru adlandırılan Yaşar Rzayev, yurdun söz dünyasında söz ovqatı olan Həzi Əliyev, yazıçı Hafiz Mirzə, hekayə ustadı Səyavuş Süleymanlı, yurd sevdalı Mübariz Süleymanlı, şair İslamın kövrək təbiəti, Süleyman Hüseynovun, Ş.Səmayə Güləli qızının, Höcətullanın, Xudaqulunun, Malik Şərifin, Hacı Hüseynin, Ağababa Nakamın, Qəzəlxan Xilqətin, bir çox başqalarının adları misra-misra, söz-söz danışır. Şairin sərhədsiz mənəvi dünyasında söz sahibləri kimi görünürlər".* "Şərhin poetik notları"ndan iqtibas etdiyim bu parçada göründüyü kimi çoxlu adlar çəkilir. Bəlkə də kimsə elə gələ bilər ki, adların belə ardıcıl sıralanması ümumi mətnə ağırlıq verir. Mən belə düşünmürəm, çünki mənəvi mühiti, təbiəti ilə hər hansı bir qələm adamı ruhundan süzülüb gələn yazıları ilə insanları aliliyə çağırır, insanlığı daha çox saflaşdırır, bir sözlə, cəmiyyətin mənəvi ahənginin təmin olunmasında söz sahiblərinin xidməti çox böyükdür.

Cənub bölgəsi həmişə mənim diqqətimdə olub. Çünki ildə bir neçə dəfə qohumlarla, doğmalarla görüşmək üçün yolumu Lənkərandan salıram. Təbiidir ki, burada yaşayan ziyalılarla da görüşlərim həmişə yaddaqalan olur. Azərbaycanın görkəmli ədəbiyyatşünas alimi Yədulla Ağazadə Lənkəran Dövlət Universitetində işləyir. Onun elmi fəaliyyəti sözün həqiqi mənasında xüsusi tədqiqatlara layiqdir. Onu da deyim ki, mən Y.Ağazadənin tədqiqat yazılarını "Kredo" qəzetində həmişə izləyirəm. İstər-istəməz Əli Rza Xələflinin Yədulla Ağazadə haqqında qeydləri də maraqla oxuyuram. Ə.Xələfli yazır: "Yədulla Ağazadənin yaradıcılığında əsas xətt nistəbən diqqətdən kənarda qalan, unudulan sahələri tədqiqata cəlb etmək olub. Onun Cənub bölgəsində yaşayıb-yaratmış sənətkarların yaradıcılığına işıq salması şərəfli bir missiyadır. M.Hüseyn Əliyevi, Mirhaşım Talışlını, və artıq çoxdan dövrümüzün klassikləri titulunu qazanmış ziyalıları tədqiq etməsi onun fədakarlığından xəbər verir. Y.Ağazadənin ardıcıl, məntiqi cəhətdən bir-birini tamamlayan yazılarını izləyərkən onun sözə can yanğısını da hiss etməli oluruq. Əlbəttə, Y.Ağazadənin zəngin yaradıcılığı təkcə bir bölgə ilə məhdudlaşmır, uğurlu pedaqoji fəaliyyəti, ictimai işlərdə cəfakeşliklə fəallığı göstərir ki, o, həm də Azərbaycanın mənəvi mühitinin ləyaqətli təmsilçisidir, xüsusilə, dövlətçiliyimizin qorunması, möhkəmlənməsi naminə gördüyü işlər miqyasa gəlməzdir. Bütün bunlar onu elmimizin cavan ağsaqqalı mərtəbəsinə yüksəldib". Mən Ə.Xələflinin bu qeydlərindəki səmimiyyəti duyuram. Çünki Y.Ağazadə ilə görüşlərimdə kitablarının nəşrə hazırlanması zamanı müşahidələrimdə hiss etmişəm ki, səmimiyyət onun üçün yüksək əxlaqi meyardır. Bu sırada dostum, görkəmli şair, ədəbiyyatşünas Elşad Səfərlinin haqqında da ayrıca bir neçə kəlmə ilə münasibətimi bildirməyi özümə borc bilirəm. Doğrudur, E.Səfərli ilə mənim yaradıcılıq səfərlərim sıx olub. Və indi də bu əlaqələrim davam edir. Onun iyirmidən çox kitabını çap etmişəm. Nəşr etdiyim kitabları haqqında geniş yazılarımla "Kredo" qəzetində münasibət bildirmişəm. Əlbəttə, bu təəssüratlar "Şərhin poetik notları"nda B.Sadiq haqqında yazılmış dəyərli ədəbi düşüncələrin təsiri ilə qələmə alınır.




Beləliklə B.Sadiqin həyat və yaradıcılığına Ə.Xələflinin çox dəyərli ədəbi-tənqidi münasibət ifadə edən qeydlərinin şərhini axıra çatdırıram. Hər halda Lənkəran ədəbi mühitinin gözəl adları gözəl bir poemanı beləcə bəzəyir.

B.Sadiqin yaradıcılığı şübhəsiz, gələcəkdə də geniş tədqiq olunacaq. Mənim düşüncəmə görə, bu istedadlı şair - Xələfli "istedadların padşahı" adlandırır. Zarafatyana olsa da, bu epitetdə bir həqiqət də var.

***12.10.2022***